# İranın anti-Azərbaycan kampaniyasının sonu terror oldu

## Terrorçuları müdafiə edən rəsmi Tehran təhlükəsizlik öhdəliyini yerinə yetirmədi

Terrora dəstək verən, terrorçu dövlətin təhlükəsizliyini öz təhlükəsizliyi hesab edən İranda Azərbaycan səfirliyinə edilən silahlı hücum gözlənilməz deyildi. Bu, İranda Azərbaycan əleyhinə uzun müddətdir aparılan anti-Azərbaycan kampaniyasının nəticəsidir. Hadisədə bir nəfər ölüb, iki nəfər yaralansa da, saxlanılan şəxsin rahatlığı xain terrorun sifarişli olduğuna, arxasında İranın xüsusi xidmət orqanlarının durduğuna dəlalət edir.

Baş verənlər göstərdi ki, İranda heç bir səfirliyin, diplomatik nümayəndəliyin toxunulmazlığına zəmanət yoxdur. Rəsmi Tehran Azərbaycan səfirliyinin də mühafizəsini diqqətdə saxlamayaraq Vyana Konvensiyasından irəli gələn öhdəliyini yerinə yetirmədiyini və ya yetirmək istəmədiyini sübut etdi. Səfirliyimizdə baş verən hadisənin terror aktı olduğu açıq-aydın görünür. Bununla belə İran rəsmiləri məsələnin şəxsi zəmində olduğunu deyərək onu başqa istiqamətə yönləndirməyə, ört-basdır etməyə cəhd edir, yalan məlumatlar yayırlar.

Azərbaycan isə İrandan hadisəni ciddi, obyektiv araşdırmağı, qısa müddətdə sifarişçilərin müəyyən edilərək layiqli cəza almalarını qətiyyətlə tələb edir.

### Uydurmalar rəsmi Tehranın beynəlxalq hüquq qarşısında məsuliyyətini azaltmır

Milli Məclisin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu deyir ki, İranda səfirliyimizə qarşı törədilən terror aktı birbaşa Azərbaycana hücum deməkdir.

Deputat bildirir ki, səfirliyimizə qarşı təşkil olunan hücumla bağlı rəsmi İran əsaslı, dəqiq və məntiqli izahat verməlidir. 1961-ci ildə qəbul edilmiş diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına görə, İranın üzərinə diplomatik nümayəndəliyin təhlükəsizliyini qorumaq öhdəliyi düşür. Ancaq baş vermiş terror hadisəsi onu göstərir ki, bu öhdəlik artıq pozulub. Odur ki, rəsmi İran bu məsələyə qaneedici izahat verməlidir.

"Məsələ ondadır ki, bu hadisə təkcə iki ölkə arasında deyil, bütövlükdə regionda baş verən hadisələr kontekstində çox təhlükəli eskalasiyaların yaranmasına gətirib çıxara bilər. Nəzərə almaq lazımdır ki, bu, Azərbaycanın rəsmi nümayəndəliklərinə qarşı birinci dəfə təşkil olunan terror hadisəsi deyil. Bir müddət əvvəl Böyük Britaniyada Azərbaycanın səfirliyinə qarşı yenə İran mənşəli radikal qruplar tərəfindən terror təşkil edilmişdi. Həmin vaxt da İran törədilmiş cinayətlə bağlı qaneedici və məntiqli izahat verməmiş, hadisəni radikal qrupların müstəqil aktı kimi qiymətləndirmişdi. Ona görə də əgər bu hadisə də hər hansı bir məzhəb, dini, yaxud terrorçu qrupların fəaliyyəti ilə əlaqələndiriləcəksə, bu izahat da qaneedici olmayacaq", - deyə Hikmət Babaoğlu deyib.

Deputat vurğulayıb ki, Azərbaycan tərəfi rəsmi İrandan dəqiq, aydın və məntiqli izahat tələb edir. Regionda hadisələrin mürəkkəb olduğunu deyən H.Babaoğlu qeyd edib ki, bu vaxta qədər İran rəsmilərinin regiondakı mümkün sülh və kommunikasiyaların açılması ilə bağlı qeyri-konstruktiv, radikal mövqeləri, bəzən Ermənistandan daha artıq radikal fikirləri burada İran rejiminin müəyyən qurumları ilə bu hadisəni törədənlər arasında mütləq bir əlaqə olduğunu deməyə əsas verir. Buna görə də bu məsələ ilə bağlı bütün hallar ən kiçik detallarına qədər öyrənilməli, araşdırma prosesinə azərbaycanlı mütəxəssislər cəlb edilməli, bənzər hadisələrin bir də baş verməməsi üçün İran tərəfinin rəsmi zəmanəti olmalıdır.

Əks təqdirdə Azərbaycanın cinayət hadisəsinə adekvat cavab vermək hüququnu özündə saxladığını deyən deputat bildirib ki, qatilin kim olması və hadisənin necə törədilməsi ilə bağlı İran tərəfindən yayılan şayiələr sadəcə məsuliyyətdən qaçmaq və hadisəni manipulyasiya etməkdir: "Terrorçunun Yasin Hüseynzadə, yaxud hər hansı bir erməni olmasının isə məsələnin mahiyyətinə heç bir aidiyyəti yoxdur. Bu uydurma vasitələr rəsmi Tehranın cavabdehliyini və beynəlxalq hüquq qarşısında məsuliyyətini azaltmır. Tam əksinə, onun məsuliyyətdən yayınma cəhdləri kimi qəbul edilir".

### Hadisə dəqiq araşdırılmalı, ciddi tədbir görülməlidir

Milli Məclisin deputatı Aydın Mirzəzadə isə İrandakı səfirliyimizə edilən silahlı hücumla bağlı bildirib ki, bu hadisə çox ciddi təxribatdır. Onun sözlərinə görə, bu, İranda Azərbaycan diplomatik nümayəndəliyinə qarşı terror aktıdır.

Deputat qeyd edib ki, İran üzərinə götürdüyü təhlükəsizlik öhdəliyini yerinə yetirmir. Tehran polisi isə məsələni araşdırmaq əvəzinə diqqəti tələsik hadisənin şəxsi motivdə olduğuna yönəltməyə çalışıb: "Əslində, bunun kökündə uzun müddətdir İranda gedən anti-Azərbaycan kampaniyası, Ermənistanı kor-koranə müdafiə etmək durur. Bu mühitdə, şübhəsiz ki, terror hadisəsi olmalı idi. Bunun arxasında erməni millətçilərinin və ya İrandakı anti-Azərbaycan qüvvələrinin durduğunu gələcək təhqiqat müəyyənləşdirər".

Aydın Mirzəzadə qeyd edib ki, Azərbaycanın apardığı müstəqil daxili, xarici siyasət xaricdə müəyyən dairələrin qısqanclığına səbəb olur. Bu səbəbdən də Londonda, Parisdə Azərbaycan nümayəndəliklərinə qarşı təxribatlar törədilir. İran tərəfdən məsələnin ciddi araşdırılmasını, günahkarların cəzalandırılmasını, əsl sifarişçilərin ortaya çıxarılmasını tələb edirik.

"İranın Azərbaycan diplomatik nümayəndəliyinin təhlükəsizliyini təmin etməməsi, əlbəttə ki, biz tərəfdən böyük narazılıqla qarşılanır. İran tərəfdən diplomatik nümayəndəmizin öldürülməsi hadisəsi ilə də rastlaşdıq. Dünya bu məsələyə ciddi narahatlığını və etirazını bildirdi. Məsələ tezliklə araşdırılmalı və müvafiq tədbirlər görülməlidir", - deyə deputat əlavə edib.

### İran terror aktı ilə bağlı hesabat verməlidir

Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın İrandakı səfirliyində baş vermiş hadisə birmənalı şəkildə terror aktıdır. Onun sözlərinə görə, hücumda "Kalaşnikov" avtomatından istifadə olunursa, əldə edilən videolar, eyni zamanda materiallar həmin terroristin məqsədinin adam öldürmək, terror hadisəsi törətmək olduğunu göstərir: "Ən ağır məqam da odur ki, terror nəticəsində bir nəfər həlak olub, iki nəfər yaralanıb. Diplomatik nümayəndəliyimizin əməkdaşı Orxan Əsgərovun şəhid olması ilə bağlı ailəsinə və yaxınlarına başsağlığı verirəm. Allah rəhmət eləsin!"

Arzu Nağıyev bildirib ki, hadisə ilə bağlı bir neçə istiqamətdə araşdırma aparılmalıdır. Birincisi, xüsusi xidmət orqanları ilə Azərbaycan tərəfi bu prosesdə mütləq iştirak etməlidir və edəcək də. İran dövləti bunu tək araşdırmamalıdır. Rəsmi Tehran terror aktına görə cavab verməlidir. Həmçinin 1961-ci il Vyana Konvensiyasının tələbləri yerinə yetirilməlidir.

"Terror aktı baş verməklə bərabər, Azərbaycan və İran arasında olan gərgin münasibətin daha da kəskinləşməsinə çalışan bir sıra dövlətlər ola bilər. Ermənistan da burada istisna deyil", - deyə deputat əlavə edib.

Terror aktını pisləyən Arzu Nağıyev vurğulayıb ki, bu, çox ciddi hadisədir, araşdırılıb ortaya faktlar qoyulmalıdır. İran dövləti birmənalı olaraq Azərbaycana terrorla bağlı hesabat verməlidir.

### Rəsmi Tehran terror hadisəsinin mahiyyətini təhrif etməyə çalışır

Milli Məclisin deputatı Ceyhun Məmmədov da dedi ki, Azərbaycanın İrandakı səfirliyinə silahlı hücumla bağlı məsuliyyəti bilavasitə İran daşıyır. O, Azərbaycan səfirliyinin təhlükəsizliyini ən yüksək səviyyədə təmin etməli idi.

Deputatın sözlərinə görə, Azərbaycanda İranın səfirliyi ən yüksək səviyyədə qorunur, ən kiçik təxribatlara belə cəhdin qarşısı qətiyyətlə alınır. İranda bizim səfirliyimiz də belə bir səviyyədə qorunmalı idi.

"Diplomatik Əlaqələr Haqqında Konvensiya 18 aprel 1961-ci ildə Vyana konqresində qəbul olunub və Azərbaycan 21 iyul 1992-ci ildə bu konvensiyaya qoşulub. Həmin sənədə əsasən, konsulluq münasibətlərinin qurulması qarşılıqlı razılıq əsasında həyata keçirilir, diplomatların oturduğu səfirlik binaları toxunulmazdır. Eyni zamanda Konvensiyaya görə, diplomatik nümayəndəliklərin başçılarının razılığı olmadan konsulluq binalarına heç kim daxil ola bilməz", - deyə deputat açıqlamasında bildirib.

C.Məmmədov əlavə edib ki, Konvensiyaya əsasən, hər bir dövlətin üzərinə ərazisində olan konsulluq binalarını edilə biləcək hücumlardan qorumaq, konsulluq qurumunun sakitliyinin istənilən şəkildə pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün bütün zəruri tədbirləri görmək öhdəliyi düşür.

Bu məsələdə İranda Azərbaycan əleyhinə davamlı aparılan təbliğatın da böyük rolu olduğunu deyən deputat qeyd edib ki, İran mediası, televiziya kanalları, radiosu, qəzetləri Azərbaycan əleyhinə düşmənçiliyi təbliğ edirlər: "Bir neçə gün əvvəl SEPAH-ın Xudafərin körpüsünə doğru yürüş etməsi ilə bağlı video da yayılmışdı. Bütün bunlar bu cür hadisələrin törədilməsinə zəmin yaradır. Odur ki, İranda Azərbaycan əleyhinə aparılan düşmənçilik təbliğatına son qoyulmalıdır".

O, qeyd edib ki, İran tərəfi səfirliyimizdə törədilən terror hadisəsinin mahiyyətini təhrif etməyə çalışır, hadisənin guya məişət zəminində baş verməsini iddia edir. Hər şeyin göz önündə olduğunu vurğulayan deputat İranın Azərbaycana qarşı düşmənçiliyinin uzun müddətdir davam etdiyini və hadisəni törədən terrorçunun İran xüsusi xidmət orqanları ilə bağlılığının istisna edilmədiyini bildirib.

"Əgər kimsə düşünürsə ki, bu kimi addımlarla Azərbaycanı haqq mövqeyindən daşındıra biləcək, yanılır. Səfirliyimizi peşəkarlıqla qoruyan təhlükəsizlik xidmətinin əməkdaşlarına təşəkkür edir, dünyasını dəyişənə rəhmət, yaralananlara şəfa diləyirəm", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 29 yanvar.- S. 8.